# Azərbaycanda peşə oftalmologiyasının banisi

**Qaradağ Rayon İcra Hakimiyyəti Azərbaycanın görkəmli oftalmoloqu, tanınmış elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 102-ci ildönümünə həsr olunmuş dəyirmi masa təşkil edib. Mərasimdə rayon icra hakimiyyətinin başçısı Süleyman Mikayılov Zərifə xanım Əliyevanın həyat və elmi irsi haqqında ətraflı söz açıb, onun Azərbaycan tibb elminə verdiyi töhfələrdən danışıb.**

Milli Oftalmologiya Mərkəzinin elmi-məlumat və təşkilati-metodik bölməsinin müdiri, Oftalmoloqlar Cəmiyyətinin sədr müavini, tibb elmləri doktoru Yazgül Abdıyeva unudulmaz akademik haqqında "Zirvələrə yüksələn zərif insan ömrü" təqdimatı ilə çıxış edib. O, Zərifə xanımın elmi yaradıcılığı, oftalmologiya sahəsində apardığı tədqiqatlardan söz açıb, eləcə də onun Azərbaycanda peşə patologiyası və tibbi deontologiya üzrə elmi məktəbin formalaşmasındakı əvəzsiz rolunu diqqətə çatdırıb.

Mərasim iştirakçıları bildiriblər ki, Zərifə Əliyevanın əsasını qoyduğu "Peşə oftalmologiyası" sahəsindəki elmi fəaliyyətlər uğurla davam etdirilir və bu yanaşmanı tibb müəssisəsinin bütün alimləri mənimsəyərək elmi-praktik təşəbbüslərdə, o cümlədən neft emalı zavodunda aparılan tədqiqatlarda tətbiq edirlər.

Dəyirmi masada Milli Oftalmologiya Mərkəzinin direktor müavini Ceyhun Nəzərli, tibb üzrə fəlsəfə doktorları Mirana Mirişova, Sona İbrahimova, Nuranə Nuriyeva, həkimlər Leyla Əliyeva, Elçin Həsənov və Natəvan Əliyeva Zərifə xanımın elmi irsi və insanlıq keyfiyyətləri ilə bağlı fikirlərini bölüşüblər.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Xalq qəzeti .- 2025.- 29 aprel (№85).- S.7.